AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 11 (1471), 6 - 12 aprel 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Cüdoçularımız “Böyük dəbilqə” turnirini 3 medalla başa vurublar

Türkiyənin Antalya şəhərində cüdo üzrə “Böyük dəbilqə” turniri keçirilib. 91 ölkədən 432 (263 kişi, 169 qadın) cüdoçunun iştirak etdiyi turnirdə Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Lisenziya xarakterli yarışda 13 (9 kişi, 4 qadın) cüdoçu ilə təmsil olunan komandamız turniri 1 qızıl və 2 bürünc medalla başa vurub. Yığmamıza qızıl medalı cüdoçumuz Zelim Kotsoyev (100 kq) qazandırıb. Mübarizəyə 1/16 finaldan başlayan təmsilçimiz Kiril Maret (Fransa), Zlatko Kumriç (Xorvatiya), Kayhan Özçiçək-Takagi (Avstraliya) və Qriqori Minaşkinə (Estoniya) qalib gələrək, finala yüksəlib. Həlledici görüşdə yaponiyalı Aron Vulfu da məğlub edən cüdoçumuz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

*(ardı 2-ci səhifədə)*

## Üçüncü Avropa Oyunlarının proqramına daha iki idman növü daxil edildi

Triatlon və idman dırmanması 2023-cü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daxil edilib. Bu barədə Avropa Olimpiya Komitələrinin (AOK) saytında məlumat verilib. Triatlon ilk dəfə Bakı-2015 birinci Avropa Oyunlarının proqramında yer alsa da, 2019-cu ildə Belarusun paytaxtı Minskdə keçirilmiş analoji yarışda təmsil olunmayıb.

III Avropa Oyunlarının proqramına qeyd etdiyimiz idman növləri ilə yanaşı, atıcılıq, müasir beşnövçülük, taekvondo, çimərlik həndbolu, badminton, boks, kamandan oxatma, sinxron üzgüçülük, basketbol - 3x3, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, dağ qaçışı, reqbi-7, tramplindən tullanma (yay), stolüstü tennis, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma da daxildir. III Avropa Oyunları 2023-cü il iyunun 9-dan 25-dək keçiriləcək.

Xatırladaq ki, birinci Avropa Oyunlarına 2015-ci ildə Bakı, ikinci Avropa Oyunlarına isə 2019-cu ildə Minsk ev sahibliyi edib.





## Olimpizm

### Qış Olimpiya Oyunları üçün test yarışları keçirilir

2022-ci ildə Çində təşkil olunacaq Qış Olimpiya Oyunları üçün test yarışları keçirilir. Pekin-2022-nin Təşkilat Komitəsi aprelin 10-dək beş idman obyektində yeddi yarışın keçirilməsinə nəzarət edir. Turnirlər çərçivəsində yarışın təşkilatçılıq səviyyəsini, obyektlərin işini, könüllülərin fəaliyyətini və təhlükəsizliyi yoxlamaq planlaşdırılıb.

Həmçinin arenalarda koronavirus infeksiyasının yayılmasının qarşısını almaq və məşqçilərin, işçilərin və idmançıların sağlamlığını qorumaq, ictimai yerləri dezinfeksiya etmək üçün ciddi tədbirlər görüləcək.

Qarşıdan gələn qışda Çində şort trek, fiqurlu konkisürmə, sürətlə konkisürmə, bobsley və skeleton idman növləri üzrə məşq həftələri və beynəlxalq yarışlar keçirilməlidir. Bu siyahıya digər idman növləri də əlavə edilə bilər.

### İtaliya Qış Olimpiya Oyunlarının emblemi təqdim olunub

2026-cı ildə İtaliyanın Milan və Kortina de Ampetso şəhərlərində keçiriləcək Qış Olimpiya Oyunlarının emblemi təqdim olunub. Bu barədə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) mətbuat xidməti məlumat verib. “Futura” adlanan loqo səslərin 74 faizini toplayaraq qalib gəlib. Belə ki, Təşkilat Komitəsinin veb-saytındakı səsvermədə 871 min nəfər iştirak edib. Loqoda boz rəngdə işlənmiş 26 rəqəmi təsvir edilib.

İtaliya Qış Olimpiya Oyunları 2026-cı il fevralın 6-dan 26-dək keçiriləcək.

Qeyd edək ki, İtaliya 1956-cı və 2006-cı illərdə Qış Olimpiya Oyunlarına ev sahibliyi edib.

### Seul Pxenyanla birgə BOK-a təklif göndərib

Koreya Respublikasının paytaxtı Seulun meriyası 2032-ci ildə Yay Olimpiya Oyunlarının Koreya Xalq Demokratik Respublikasının (KXDR) paytaxtı Pxenyanla birgə təşkili üçün Beynəlxalq Olimpiya Komitəsinə (BOK) təklif göndərib.

Yonhap agentliyi xəbər verir ki, Seul meriyası yazılı təklifi BOK-un Olimpiya Oyunlarının ev sahibini müəyyən edən komissiyaya təqdim edib. Bildirilir ki, Seul meriyası BOK-un İcraiyyə Komitəsinin fevralda Avstraliyanın Brisben şəhərinin 2032-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək əsas namizəd şəhər elan etməsi qərarından təəssüflənib. Komitə ilə məsləhətləşmələr aparan Koreya Respublikası tərəfi Seul və Pxenyanın Olimpiya Oyunlarına birgə ev sahibliyi etməkdən ötrü namizədliyin irəli sürülməsinə müsbət cavab alıb. Koreya Respublikası BOK-dan ev sahibliyi edəcək şəhər barədə yekun qərar verilmədiyindən digər şəhərlərlə danışıqların davam etdirilməsini xahiş edib.

Qeyd edək ki, Seul və Pxenyan 2032-ci ildə Yay Olimpiya Oyunlarının birgə təşkili barədə əməkdaşlıq qərarı Koreya Respublikasının Prezidenti Mun Ce-in və KXDR-in lideri Kim Çen Inın 2018-ci ilin sentyabrında Pxenyanda imzaladıqları birgə bəyannamədə əksini tapıb. Bu barədə qərar isə hər iki tərəfin müvafiq qurumlarının nümayəndələrinin KXDR-in Keson şəhərində keçirilmiş görüşündə qəbul olunub.

## Anons

*“Ehramlar ölkəsi”ndə tarixi nəticə* Səh. 2

İdmançılarımızın Tokio-2020-də iştirakı məsələləri müzakirə olunub Səh. 2

*Tələbələrin Ümumdünya Yay Universiadası təxirə salındı* Səh. 2

Əfqan Xaşalov: “Onun yerinə mən də şəhid ola bilərdim ...” Səh. 3

Qalibə deyil, qurbana çevirən - dopinq Səh. 5

*DÇ-2022: Avropanın 55 komandası fərqli nəticələrlə diqqət çəkir* Səh. 6

Avropadan transfer xəbərləri Səh.7

# Cüdoçularımız “Böyük dəbilqə” turnirini 3 medalla başa vurublar



(əvvəli 1-ci səhifədə)

Komandamızın digər cüdoçusu Nicat Şıxəlizadə (66 kq) Antaliya sınağında bürünc medal qazanıb. Belə ki, 1/16 finalda Çingizxan Saginaliyevi (Qırğızıstan) və 1/8 finalda Dmitri Minkounu (Belarus) mübarizədən kənarlaşdıran idmançımız növbəti mərhələdə komanda yoldaşı Orxan Səfərovla görüşüb və qarşılaşmadan qalib ayrılıb. Yarımfinalda yaponiyalı cüdoçu Abe Hifumiyə uduzan Nicat 3-cü yer uğrunda qarşılaşmada Fransanı təmsil edən Kilian Le Bloşla üz-üzə gəlib. Rəqibinə qalib gələn cüdoçumuz bürünc medal qazanıb.

Daha bir bürünc medalı komandamızın aktivinə Murad Fətiyev (81 kq) yazdırıb. Yarışa 1/16 finaldan başlayan cüdoçumuz ardıcıl olaraq Danial Stepien (Polşa) və Din Gemeri (İsrail) mübarizədən kənarlaşdırıb. O, 1/4 finalda Vədat Albayrak (Türkiyə) ilə dueldən məğlub ayrılıb. İdmançımızın təsəlliverici qarşılaşmada Rusiyanı təmsil edən erməni əsilli rəqibi David Karapetyan tatamiyə çıxmadığı üçün M.Fətiyev qalib elan edilib. Üçüncü yer uğrunda qarşılaşmada italiyalı rəqibi Antonio Espozitoya qalib gələn cüdoçumuz bürünc medala sahib çıxıb. Ardıcıl iki nüfuzlu yarışda 3-cü yeri tutan Murad Fətiyev Tokio Olimpiya Oyunlarına vacib lisenziya xalları qazanıb.

Komandamızın digər üzvlərindən Orxan Səfərov (66 kq) və Uşangi Kokauri (+100 kq) isə turnirində beşinci yerlə kifayətləniblər.

Beləliklə, 91 ölkənin cüdoçularının mübarizə apardığı nüfuzlu yarışda Azərbaycan millisi medalların əyarına görə ümumi hesabda 7-ci, kişilərin yarışında 4-cü yeri tutub.

Antalya şəhərində “Böyük dəbilqə” turniri zamanı Azərbaycan Cüdo Federasiyasının (ACF) prezidenti Rövnəq Abdullayev və Beynəlxalq Cüdo Federasiyasının (İJF) prezidenti Marius Vizer arasında görüş keçirilib. Görüşdə Azərbaycanda cüdonun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər barədə İJF rəhbərliyinə ətraflı məlumat verilib. Beynəlxalq Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü R.Abdullayev idmançılarımızın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları yüksək nailiyyətlərdən söhbət açıb.

Ölkədə cüdo idman növünün də zəngin ənənələrə malik olduğunu qeyd edən ACF prezidenti son vaxtlar Azərbaycan idmançılarının mötəbər yarışlardakı uğurlarını vurğulayıb. O, Azərbaycan cüdoçularının dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq “Böyük dəbilqə” turnirlərində medallar qazandığını diqqətə çatdırıb.

Səmimi görüşə görə minnətdarlığını bildirən Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Azərbaycanın artıq bütün dünyada idman ölkəsi kimi tanındığını söyləyib. O, dövlət səviyyəsində Olimpiya Hərəkatı və idmanın inkişafına göstərilən diqqətin dəfələrlə ümumdünya idman təşkilatları və federasiyaları tərəfindən qiymətləndirildiyini bildirib. Azərbaycan cüdoçularının gələcək beynəlxalq yarışlarda da uğurla çıxış edəcəyinə ümidvar olduğunu söyləyən İJF prezidenti Bakıda ənənəvi “Böyük dəbilqə” yarışlarının hər zaman yüksək səviyyədə keçirildiyini, bu mötəbər turnirdə beynəlxalq və yerli federasiyaların birgə işçi qrupunun səmərəli fəaliyyətini xüsusi vurğulayıb. Görüşdə ACF və İJF arasında mövcud olan səmərəli əməkdaşlıq və pandemiya dövründə cüdonun davam etdirilməsi mövzusunda fikir mübadiləsi aparılıb. Mövcud vəziyyətin müxtəlif turnirlərin keçirilməsinə və cüdo idman növünün sabitliyinin təmin olunmasına təsiri, bu istiqamətdə həyata keçirilən tədbirlər ətraflı müzakirə olunub.

# “Ehramlar ölkəsi”ndə tarixi nəticə

Misirin paytaxtı Qahirədə qılıncoynatma üzrə yeniyetmə və gənclər arasında dünya birinciliyi keçirilir. Yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayırlar. Dünya birinciliyinin ikinci günündə sablya üzrə milli komandamızın üzvü Zərifə Hüseynova ilk dəfə iştirak etdiyi dünya birinciliyində yeniyetmələr arasında bürünc medal qazanıb. Qrup mərhələsini 4 qələbə ilə başa vuran Zərifə 1/16 finalda Misir təmsilçisi Adel Eldokşu (15:8), ardınca özbəkistanlı sablyaçı Jasmina Abdulayevanı (15:11) məğlub edib. Yarımfinala yüksəlmək uğrunda keçirilən görüşdə Koreya Respublikası qılıncoynadanı Li Yunseo üzərində 15:6 hesablı inamlı qələbə qazanan Zərifə dünyanın ən güclü 4 yeniyetmə sablyaçı sırasına yüksəlməklə turnirin bürünc medalını təmin edib. İdmançımız finalın bir addımlığında dünya birinciliyinin qalibi, ABŞ sablyaçısı Maqda Skarbonkieviczə 9:15 hesabı ilə məğlub olub.



Bu, Azərbaycanın qılıncoynatma tarixində sablya üzrə yeniyetmələrin dünya birinciliyində qazandığı ilk medaldır.

Xatırladaq ki, daha öncə şpaqaçımız Ruslan Həsənov 2019-cu ildə Polşanın Torun şəhərində keçirilən gənclərin dünya birinciliyində bürünc medal qazanıb.

# İdmançılarımızın Tokio-2020-də iştirakı məsələləri müzakirə olunub

***Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə bu ölkənin parlamentinin müşavirlər palatasının deputatı, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Kentaro Asahi ilə görüşüb.***



Görüş zamanı, K.Asahi səfirə görüş üçün təşəkkür edib, cari ildə Azərbaycanın müstəqilliyinin bərpa etməsinin 30 illiyi ilə bağlı təbriklərini çatdırıb.

Paralimpiya Oyunlarında da Yaponiya tərəfinin Azərbaycan idmançılarının iştirak edəcəyinə ümidvar olduğunu bildirib. Koronavirus pandemiyasına baxmayaraq, bu oyunların yüksək səviyyədə və təhlükəsiz şəkildə keçiriləcəyini qeyd edib.

Parlamentdə məhz idman məsələlərinə məsul olduğunu xatırladan K.Asahi, eyni zamanda Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi dəstələri tərəfindən Bakı şəhərində, habelə digər şəhərlərdə on minlərlə azərbaycanlının qətlə yetirilməsi haqda da məlumat verib.

Öz növbəsində, səfir G.İsmayılzadə görüş və təbrikə görə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, sarsılmaz iradəsi və Milli Ordumuzun əsgərlərinin igidliyi sayəsində Azərbaycanın Vətən müharibəsində böyük Qələbə qazanması və Azərbaycanın 30 ilə yaxın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad edilməsini qonağın diqqətinə çatdırıb. Səfir, 103 il öncə, 1918-ci ilin mart və aprel aylarında erməni daşnaklarının silahlı

Görüşdə əsas mövzu olaraq təxirə salınmış Tokio-2020 Olimpiya və Paralimpiya Oyunlarının 2021-ci ilin yayında təşkili və Azərbaycan idmançılarının bu beynəlxalq yarışda iştirakı məsələləri müzakirə edilib.

Kentaro Asahi səfirə cari il iyulun 23-dən avqustun 8-dək Tokio Olimpiya və avqustun 24-dən sentyabrın 5-dək idman sahəsi də daxil olmaqla iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə öz töhfəsini verəcəyini vəd edib. O, Azərbaycan idmançılarına Olimpiya və Paralimpiya Oyunları zamanı bu və ya digər formada dəstək verməyə hazır olduğunu da bildirib.

Məlumat üçün minnətdarlığını bildirən G.İsmayılzadə 2021-ci ilin yayında keçiriləcək Tokio-2020 Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan idmançılarının iştirak edəcəyinə əmin olduğunu deyib.

# Avropa Ağırlıqqaldırma Federasiyasına yeni prezident seçildi




Avropa Ağırlıqqaldırma Federasiyasının (EWF) yeni prezidenti müəyyənləşib. Rusiyanın paytaxtı Moskvada keçirilən konqresdə bu vəzifəyə türkiyəli Hasan Akkuş seçilib.

Koronavirus pandemiyası ilə əlaqədar bəzi nümayəndələr tədbirə qatılmadığından səsvermə qarışıq formatda təşkil olunub. İştirakçılar kağız bülletenlər vasitəsilə, konqresə qatıla bilməyənlər isə onlayn formada səs veriblər.

Qeyd edək ki, Hasan Akkuşdan başqa, EWF prezidentliyinə daha 2 namizəd də var idi. Bunlardan biri qurumun İcraiyyə Komitəsinin üzvü Antoni Konflitti (Moldova), digəri isə Rusiya Ağırlıqqaldırma Federasiyasının prezidenti Maksim Aqapitov (Rusiya) idi. Sonradan M.Aqapitov namizədliyini geri götürüb.

## Milli komandamız Türkiyəyə yollanıb

Kişi basketbolçulardan ibarət milli komandamız Türkiyənin İzmir şəhərində təlim-məşq toplanışında iştirak edir. Bu gün başlayan hazırlıq prosesində millimiz baş məşqçi Samit Nuruzadənin rəhbərliyi altında iştirak edir. Komandamız təlim-məşq toplanışı çərçivəsində bir neçə yoldaşlıq oyununda da qüvvəsini sınayacaq.

Təlim-məşq toplanışı 3x3 basketbol üzrə Avropa çempionatının təsnifat mərhələsinə və Konyada təşkil olunacaq İslam Həmrəyliyi Oyunlarına hazırlıq xarakteri daşıyır.

Hazırlıq prosesi aprelin 19-dək davam edəcək.

## Azərbaycanın iki təmsilçisi AİBA-nın komitələrinə üzv seçilib

Dünya Həvəskar Boks Birliyinin (AİBA) komitələrinin yeni üzvlərinin adları açıqlanıb. Azərbaycanın iki təmsilçisinin adı da bu siyahıda yer alıb. Belə ki, Peşəkar Boks Federasiyasının birinci vitse-prezidenti Fərhad Acalov çempionlar və veteranlar komitəsində yer alıb. Digər təmsilçimiz Leyla Nəsirova isə tibb və antidopinq komitəsinə üzv seçilib.

# Tələbələrin Ümumdünya Yay Universiadası təxirə salındı

Bu il avqustun 18-29-da Çinin Çendu şəhərində keçirilməsi planlaşdırılan Ümumdünya Yay Universiadası koronavirus pandemiyası səbəbindən 2022-ci ilə təxirə salınıb. Bu barədə qərar Beynəlxalq Universitet İdman Federasiyasının (FISU) İcraiyyə Komitəsinin iclasında qəbul edilib. Azərbaycan idmançılarının da iştirak edəcəyi gözlənilən Universiadanın yeni tarixi əlaqədar qurumlarla razılaşdırılıqdan sonra açıqlanacaq. 18 idman növü üzrə keçiriləcək Çendu Universiadasının adı və loqosu qorunub saxlanılacaq.

İclasda həmçinin 2015-ci ildən FİSU-nun prezidenti vəzifəsini icra edən Oleq Matısinin fəaliyyətini dayandırması barədə də məlumat verilib. Bu qərar Moskva Antidopinq Laboratoriyasının (LIMS) məlumat bazasının saxtalaşdırılması səbəbindən tətbiq olunan Ümumdünya Antidopinq Agentliyinin (WADA) sanksiyaları ilə bağlıdır. Belə ki, Rusiya məmurlarına iki il ərzində beynəlxalq idman federasiyalarında rəhbər vəzifələri tutmaq qadağan edilib. Bu səbəbdən FISU-nun rəhbəri vəzifəsini qurumun birinci vitse-prezidenti Leons Eder icra edəcək.

Qeyd edək ki, Çendu Universiadasında Azərbaycan atletlərinin cüdo, taekvondo, uşu, atletika, qılıncoynatma, bədii və ritmik gimnastika yarışlarında təmsil olunması planlaşdırılırdı.

Vətən müharibəsinin idmançı qəhrəmanları

# Əfqan Xaşalov:
# “Onun yerinə mən də şəhid ola bilərdim ...”

*44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Otuz ildir işğal altında olan əzəli torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, digər qəsəbələr, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi, böyük sevinclə qarşılandı. Bu müddət ərzində Ermənistan ordusu haqqında ermənilərin özlərinin yaratdıqları “məğlubedilməzlik” mifi darmadağın oldu. Düşmən ordusunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi məhv edildi.*

*Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmiş qəhrəman oğullarımızın sırasında idmançılarımızın da böyük payı var. Belə ki, müharibənin ilk günlərindən könüllü olaraq ordu sıralarına yazılmış idmançılarımız döyüş meydanında onlara tapşırılan vəzifəni şərəflə yerinə yetirdilər.*

*Öz səhifələrində Vətən müharibəsinə xüsusi yer ayıran “Olimpiya dünyası” qəzeti budəfəki sayında oxucularını İkinci Qarabağ müharibəsinin idmançı-iştirakçısı, “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sərbəst güləşçisi, yeniyetmə və gənclər üzrə Avropa çempionu, gənclər üzrə dünya çempionu Əfqan Xaşalovla tanış edəcək.*



Məlumat üçün bildirək ki, qəhrəmanımız 1997-ci il iyunun 7-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Uşaq yaşlarından güləşə böyük həvəsi olan Əfqan 2009-cu ildə Qazax rayonunda sərbəst güləşlə məşğul olmağa başlayıb. 2013-cü ildən isə məşqlərini Bakıda, “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyində davam etdirərək, şəxsi məşqçisi Cavid Qurbanzadənin rəhbərliyi altında böyük idmana gedən yolda peşəkar addımlarını atmağa başlayıb. Təsadüfi deyil ki, Əfqan elə böyük uğurlarını da “Zenit”in tərkibində atıb. Yeniyetmə və gənclər arasında ikiqat Avropa çempionatının qalibi olan sərbəst güləşçimiz həmçinin gənclər arasında dünya çempionu adını da qazanıb. Əfqan bundan başqa bir dəfə Avropa və dünya ikincisi, həmçinin dünya çempionatının bürünc mükafatçısı olub.

Müxtəlif turnirlərin qalibi olan güləşçimiz 2017-ci ildə Litvanın Klaypeda şəhərində təşkil olunan hərbçilər arasında güləş üzrə 32-ci dünya çempionatında bürünc medala sahib çıxıb. Gələcəyin Olimpiya ümidlərindən olan müsahibimiz Vətən müharibəsi başladığı gündən hərbi qulluqçu kimi ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə ordu sıralarına qoşulub. Qəhrəman hərbçimiz yarış meydanındakı əzmkarlığını, mərdliyini döyüş meydanında da sübut edib. Əfqan Xaşalov döyüşlərdən sonra “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif olunub.

Bu günlərdə redaksiyamızın qonağı olan idmançı döyüşçümüz bizimlə söhbətində müharibə vaxtı keçdiyi döyüş yolundan və idmançı karyerasında gələcək planlarından danışıb.

***- Əfqan, istərdik ki, söhbətimizə Azərbaycanın tarixi qələbəsi ilə başa çatan Vətən müharibəsindəki iştirakınla başlayaq.***

- Vətən müharibəsi bizim böyük zəfərimizlə başa çatdı. 28 il işğal altında olan torpaqlarımız, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhəri döyüş yolu ilə azad edildi. Müharibədə iştirak etməyim, azad olunan torpaqlarda rolumun olması bu Vətənin bir övladı kimi məni çox sevindirir. Mənə çağırış sentyabrın 18-də gəldi. Həmin vaxt Qazaxdan Bakıya təlim-məşq toplanışına gəlmişdim. Çağırışın gəldiyi gün yenidən Qazaxa yollandım. Növbəti gün isə Rayon Hərbi Komissarlığına getdim. Məni əvvəlcə Gəncə, sonra Şəmkirə apardılar. Oradan isə Ağstafaya və Daşkəsənə təlimə yollandıq.

***- Hansı ərazilərimizin azad olunması əməliyyatlarında iştirak etmisən?***

- Təlimlərdən sonra noyabr ayında Füzulinin kəndlərinin azad olunması üçün döyüşlərə başladıq. Qızğın döyüşlər gedirdi. 14 gün səngərdə qaldıq. Həmin döyüşlərdə keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. Şəhidlik ən yüksək bir zirvədir. Bu zirvəyə ucalmaq, müharibədə şəhid olmaq arzularımdan biri idi. Amma bu mənə qismət olmadı. Döyüş zamanı yaxın dostlarım yanımda şəhid olanda artıq düşünürdüm ki, şəhid olmaq yox, qardaşlarımın qisasını almaq lazımdır. İrəlilədikcə yalnız bu haqda düşünürdük. Füzulinin kəndləri işğaldan azad edildəndən sonra Azərbaycanın incisi olan Şuşa şəhərinə doğru istiqamətləndik.

***- Şuşa döyüşlərinin iştirakçısı kimi, istərdik ki, bir qədər də döyüşlərdən və qarşılaşdığın hadisələrdən danışasan.***

- Biz həmin vaxt Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) arxası ilə gedirdik. Demək olar ki, onlardan bir addım geridə idik. Onların haqqını həqiqətən də ödəmək mümkün deyil. Şuşaya ən birinci XTQ daxil oldu. Piyada getdiyimizə görə Şuşaya döyüşlərin ortasında gəlib çatdıq. Təsəvvür edin, Füzulidən Şuşaya beş gün ərzində 80 kilometr piyada yol getdik. Həmin vaxt təminat olmadığı üçün demək olar ki, ac-susuz minaatanların altında irəliləyirdik. Əslində, təminatın gətirilməsinə özümüz də razı deyildik. Çünki bu, böyük təhlükə idi. Elə olurdu ki, bir gecədə üstümüzə 600 minamyot gəlirdi. Hətta elə olurdu ki, biri düşəndə o birinin səsini eşitmirdik. Elə yerlər var idi ki, ermənilər oranı gördüyü üçün həmin yerlərdən tək-tək, qaçaraq keçirdik. Onlar bizi tək minamyotla deyil, snayperlə də nişan alırdılar. Şuşaya çatmazdan əvvəl gecə bir erməninin evində qaldıq. Səhərə yaxın isə yenidən yolumuza davam etdik və Şuşa yazılan lövhənin altına gəlib çatdıq. Orada böyük su çəni var idi. Həmin vaxt 27 nəfər idik. Mərmilərdən qorunmaq üçün su çəninin içərisinə girdik. Minamyot atəşi altında 3 gün mühasirədə qaldıq. Üç hərbçimiz şəhid oldu, digərləri isə yaralandı. Sağ qalanlardan biri də mən idim. Hadisə zamanı yaralı olan hərbçilərə yardım edir, onları yaxınlıqdakı təcili yardım avtomobillərinə çatdırırdıq. Ermənilər hətta təcili yardım maşınlarımızı da vururdular.

***- Mühasirədən çıxmaq yəqin ki, asan olmadı.***

- Biz dağın ətəyində, elə bir yerdə idik ki, ermənilər həmin ərazini yalnız PUA-lar vasitəsi ilə görürdülər. Onların PUA-larını görəndə yerimizi dəyişib, zərbədən sonra yenidən həmin yerə qayıdırdıq. Ermənilər ən çox Şuşa yazılan lövhənin yanındakı dağı minamyotla atəşə tuturdular. Onlar əsasən, dağı vurmaqla yolu bağlamağa və bizə təminatın gəlməsinin qarşısını almağa çalışırdılar. Düzdür, nə qədər çətin vəziyyətdə olsaq belə onları susdura bilirdik. Üç gün orada mühasirədə qaldıqdan sonra üçtərəfli bəyanat imzalandı. Döyüşlərin başa çatması, barədə məlumat əldə etdik.

***- Vətən müharibəsi dövründə sənə ən xoş təsir edən anlar hansılar oldu?***

- Döyüşlər başa çatandan sonra Şuşa şəhərinə girdik və məscidin yaxınlığında yerləşdik. Ermənilər məscidi bərbad hala salmışdılar. Məscidi təmizlədikdən sonra camaat namazı qıldıq, dualar etdik. Bugünlərin mənə də qismət olduğu üçün çox qürurluyam. Təxminən 5 gün Şuşada qaldıq. Orada olanda ermənilərə məxsus “VAZ 2106” markalı avtomobil sürürdüm.

***- İşğaldan azad olunan ərazilərə gedib çıxmaq heç də hər kəsə nəsib olmur. Həmin torpaqlara ayaq basmaq, Şuşa məscidində namaz qılmaq necə hisslər idi?***

- Əlbəttə, biz istər Füzuli, istər Şuşa olsun böyük ruh yüksəkliyi, fəxrlə həmin torpaqlara ayaq basırdıq. Hətta hadisələr o qədər tez cərəyan edirdi ki, biz harada olduğumuzun belə fərqinə vara bilmirdik. Yəni tarixi torpaqlara ayaq basmağımıza vaxt tapıb sevinə bilmirdik. Döyüşlər başa çatandan sonra Kəlbəcərə yollandıq. İyirmi günə yaxın orada qaldıq. Bizim tabor orada yerləşməli idi. Biz həmin vaxt Kəlbəcərdə isti suda çimdik. Orada ermənilərin qaldıqları, istirahət etdikləri evlər var idi. Fəxr edirdik ki, bu doğma torpaqlarda artıq biz məskunlaşmışıq. Yadıma gəlir, döyüşlərdən sonra Şuşada kəndlərin birində dağın başında əlimizdə silahla dayanıb, düşməni müşahidə edirdik. Düşmənlər gözümüz önündə əşyalarını toplayıb, evlərini tərk edirdi. Bu bizim üçün şərəf idi ki, onlar bizə məxsus olan torpaqlardan çıxıb gedirdilər.

***- Müharibənin amansızlığını öz gözlərinlə gördün. Həmin anlar sözlə ifadə olunmur. Ölümlə həyat arasında bir nəfəs qədər məsafə var. Bu barədə nə deyərdin.***

- Döyüş zamanı silahdaşlarımla çox yaxın olduq. Demək olar ki, onlarla bir can idik. Elə bu səbəbdəndir ki, itirdiyim hər bir hərbçi yoldaşımın acısı məni çox sarsıdırdı. Bizimlə qonşu kənddən olan Emil adlı yaxın əsgər yoldaşım var idi. Onu müharibədən əvvəl də tanıyırdım. Amma o qədər də yaxın münasibətimiz yox idi. Vətən müharibəsi isə bizi bir-birimizə yaxınlaşdırdı. Ailəli idi, iki övladı var idi. Onun şəhid olması mənə çox ağır təsir etdi.

Bir dəfə isə Şuşada mühasirədə olarkən hərbçi yoldaşlarımdan biri həyəcanlı vəziyyətdə məni qucaqladı. Onu sakitləşdirməyə çalışırdım. Təəssüf ki, yaxınlığımıza düşən minamyot qəlpəsi məni qucaqlayan əsgərə dəydi. Başından yaralanan əsgər qollarımın arasında şəhid oldu. Heç nə edə bilmədim... Düşünürsünüz, bu nə deməkdir? Onun yerinə mən də şəhid ola bilərdim. Amma Allah saxlayanda saxlayır. Bu hadisə döyüş zamanı yaddaşıma əbədi həkk olan ən təsirli anlardan biri idi. Həmin vaxt hər birimiz yalnız qisas barədə düşünürdük. Düşmənə olan nifrətimiz birə-beş artmışdı.

***- Müharibədən qayıtdıqdan sonra bəzi hərbçilər səhhətlərində yaranan problemlərlə əlaqədar müalicə alırlar. Bəs sənin necə, səhhətində hər hansı bir problem yaranmayıb ki?***

- Füzulidə döyüş zamanı gözümə giliz girmişdi. Bu hadisədən sonra görmə qabiliyyətimdə zəiflik hiss edirəm. Həkimə hələ ki, müraciət etməmişəm. Amma yaxın günlərdə istəyirəm ki, müayinədən keçib, müalicə alım. Çünki çox yaxın olan yazıları belə görməkdə çətinlik çəkirəm.

## “Təəssüf ki, onlar qazandıqları qələbəni görə bilmədilər”

***- İstərdik bir qədər də müharibədən evə qalib kimi qayıtdığın anları bizimlə bölüşəsən.***

- Hərbidən yanvarın 12-də tərxis olundum. Düzdür, qalib kimi, qayıtmaq sevindirici bir hiss idi. Hətta müharibə başa çatandan sonra Şuşa məscidində qıldığımız namazda belə müharibənin qələbəmizlə başa çatmasına görə Allaha şükür edib, dualar edirdim. Amma etiraf edim ki, evə qələbə hissi ilə getmədim. Mənim döyüşçü qardaşlarım evə getməyib, şəhid olubsa, mən yüksək əhval-ruhiyə ilə evə qayıda bilməzdim. Evə dönsəm belə içimdə şəhid qardaşlarıma görə ağlayırdım. Onlar da mənim kimi sağ-salamat, ailəsinin uşağının yanına getməli idilər. Onları da gözləyən bir ata, ana, həyat yoldaşı və uşaqlar var idi. Təəssüf ki, onlar qazandıqları qələbəni görə bilmədilər.

***- Bildiyimizə görə, müharibə zamanı hərbçilər döyüş yoldaşlarına son nəfəslərində vəsiyyətlər edirdilər. Bəs sən necə, belə bir hadisə ilə qarşılaşdınmı?***

- Bir gün, gecə radələrində şəhid hərbçilərimiz arasında xırıltı səsinin gəldiyini eşitdik. Nəyin baş verdiyini yoxlamaq üçün şəhidlərin olduğu yerə baxanda “qoca” ləqəbi ilə çağırdığımız Babək adlı hərbçinin hələ də nəfəs aldığını gördük. Onu 10 km arxaya təcili yardım maşınına apardıq. Babək yolda məndən qızına çobanyastığı gülü alıb aparmağı istəmişdi. Əlbəttə, biz onun bu istəyini yerinə yetirdik. Təəssüf ki, bu yaxınlarda Babəkin 4 aydan çox komada qaldıqdan sonra şəhid olması xəbərini öyrəndik. Allah ona və bütün şəhid qardaşlarımıza rəhmət eləsin. Onların ruhu qarşısında baş əyirəm. Yaralı olan hərbçilərimizə isə tezliklə şəfa tapmasını arzulayıram.

***- Yəqin ki, müharibə vaxtı Güləş Federasiyasından və təmsil olunduğun “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyindən səninlə əlaqə saxlayıb, maraqlanırdılar.***

- Bəli, şəxsi məşqçim Cavid müəllim, tez-tez zəng edib, mənimlə maraqlanırdı. Hər gün zəng etsə də döyüşlərdə olduğumuz üçün danışa bilmirdim. Bundan başqa “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil müəllim, Güləş Federasiyasının nümayəndələri, məşqçi-müəllimlər zəng edirdilər. Müharibədən qayıtdıqdan sonra Federasiya nümayəndələri və məşqçilər məni döyüşçü kimi qarşıladılar. Fazil müəllim də həmçinin məni yüksək səviyyədə qarşıladı və qalib ordunun qalib əsgəri kimi təbrik etdi. Mənimlə maraqlanan və diqqət göstərən hər kəsə təşəkkürümü bildirirəm.

***- Yəqin ki, uzun sürən fasilədən sonra məşqlərə başlamısan.***

- Yanvarın 21-də məşqlərə start verdik. İlk sınağım fevral ayının sonlarında Ukraynanın məşhur güləşçilərinin və məşqçilərinin xatirəsinə keçirilən ənənəvi Kiyev turniri oldu. 4 ay müharibədə olduğum üçün hazırlıq formamdan xeyli uzaq idim. İki həftə məşq edib, yarışa çıxdım. Amma ilk görüşdə məğlub oldum. Müharibədən əvvəl də karantinə görə normal məşq edə bilməmişdik. Bir ildən çox idi ki, yarışda iştirak etmirəm. İndi şükür Allaha yavaş-yavaş hazırlıq formamı bərpa edirəm.

***- Budapeştdə keçirilən Avropa Olimpiya Təsnifat turnirində komandamızın heyətində yer almadın. Olimpiya Oyunlarına lisenziya verəcək Avropa çempionatında iştirakın gözlənilirmi?***

- Böyüklər arasında güləş üzrə Avropa çempionatı aprelin 19-25-də Polşanın paytaxtı Varşavada təşkil olunacaq. Məşqlərimi davam etdirirəm. İnşallah həmin yarışda 57 kq çəki dərəcəsində iştirak edəcəyim gözlənilir. Bu yarışdan sonra bəzi məsələlərə aydınlıq gələcək.









*Azər Əlizadə*

## “Gəncə Vətən Müharibəsində” kitabı işıq üzü görüb




“Gəncə Vətən Müharibəsində” kitabının ilkin versiyasının təqdimatı keçirilib. Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən təşkil olunan tədbirdə Baş İdarənin rəisi Həmid Nəsirov, “Gəncə Vətən Müharibəsində” kitabının müəllifi Ruhulla Zahidov, Gəncə İdman Liseyinin direktoru Mehman Allahverdiyev və Vətən Müharibəsində qəhrəmancasına döyüşən idmançılar iştirak ediblər.

Tədbirdə çıxış edən Həmid Nəsirov Gəncənin 44 günlük Vətən Müharibəsi dövründə əzm və qətiyyət göstərməsindən və Gəncənin vətənpərvər idmançı oğullarından söz açıb.

Sonra çıxış edən “Gəncə Vətən Müharibəsində” kitabının müəllifi Ruhulla Zahidov göstərilən diqqət və qayğıya görə öz təşəkkürünü bildirib.

Tədbirin sonunda Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin nəzdində Uşaq Gənclər İdman Məktəbinin cüdo üzrə məşqçi müəllimi Cavad Nəhmədov Vətən müharibəsində göstərdiyi yüksək vətənpərvərliyinə görə Baş İdarə rəhbərliyi tərəfindən fəxri fərmanla təltif edilib.

## Bakıda keçirilməsi planlaşdırılan Avropa çempionatının vaxtı dəyişdirildi



Paytaxtımız gələn ilin mayın 20-22-də sumo üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Bu barədə məlumatı “Olimpiya dünyası” qəzetinə Avropa Sumo Federasiyasının vitse-prezidenti, Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayev verib. Yarışın əvvəlcə ötən ilin aprel, sonra isə oktyabr aylarında keçirilməsinin planlaşdırıldığını deyən federasiya rəhbəri bunun koronavirus pandemiyasına görə mümkün olmadığını bildirib:

“Avropa çempionatına yüksək səviyyədə hazırlaşırdıq. Lakin mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq, çempionatın tarixində dəyişiklik edildi. Bununla bağlı Avropa Sumo Federasiyasının prezidenti Dariuş Rozumla da danışıqlar aparıldı. Mövcud şərait nəzərə alınaraq Avropa çempionatının tarixinin gələn ilin may ayının 20-22-nə salınması qərara alındı”.

Samir Abdullayev həmçinin sumonun üçüncü Avropa Oyunlarının proqramına daxil edilməsi məsələsinin də əsas müzakirə mövzularından biri olduğunu qeyd edib. “Məlum olduğu kimi, üçüncü Avropa Oyunları 2023-cü ildə Polşanın Krakov və Malopolye şəhərlərində təşkil olunacaq. Bizim əsas məqsədimiz sumo idman növünü bu Oyunların proqramına daxil etməkdir. Avropa Sumo Federasiyasında da bu barədə danışıqlar davam edir. Yəqin ki, Polşadakı Avropa Oyunlarının proqramında sumo idman növü də yer alacaq. Əlbəttə, nəhənglərin mübarizəsini qitənin ən mötəbər yarışında izləmək hər birimiz üçün maraqlı bir yenilik olar. Bu baxımdan Bakıdakı Avropa çempionatı da Oyunların proqramına daxil edilməsi üçün əhəmiyyətli yarışlardan biri olacaq. Çalışacağıq ki, bu yarışda üzərimizə düşən vəzifənin öhdəsindən layiqli şəkildə gələk və çempionata yüksək səviyyədə ev sahibliyi edək”, - deyə federasiya prezidenti bildirib.

## Dünya çempionatına Özbəkistan ev sahibliyi edəcək

2023-cü ildə kişi boksçular arasında təşkil olunacaq dünya çempionatının yeri müəyyənləşib. Bunu Dünya Həvəskar Boks Birliyinin (AIBA) prezidenti Umar Kremlyov açıqlayıb. O bildirib ki, 2023-cü ildə keçiriləcək mundiala Özbəkistan ev sahibliyi edəcək. Yarış bu ölkənin paytaxtı Daşkənddə təşkil olunacaq. Dünya çempionatının keçirilmə tarixi hələ dəqiqləşməyib.

Qeyd edək ki, 2021-ci ilin dünya çempionatı Serbiyanın paytaxtı Belqradda keçiriləcəkdir.

## Pandemiya dünya kubokuna mane oldu

Beynəlxalq Üzgüçülük Federasiyası Tokio Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan suyatullanma üzrə dünya kubokunu ləğv edib. Turnir aprelin 18-23-də Tokioda keçirilməli olsa da, koronavirus pandemiyası səbəbindən ləğv edilib.




Xatırladaq ki, Tokio Olimpiadası 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Lakin koronavirus pandemiyasına görə yarışların vaxtı bir il sonraya dəyişdirilib və onun iyulun 23-dən avqustun 8-dək təşkili gözlənilir.

## Azərbaycan idmançılarının da iştirak edəcəyi Avropa çempionatı ləğv olundu



Bu il avqustun 26-dan 29-dək keçirilməsi nəzərdə tutulan atletika üzrə 18 yaşınadək idmançılar arasında Avropa çempionatı COVİD-19 pandemiyası səbəbi ilə ləğv edilib. Turnirin əvvəlcə 2020-ci ilin iyun ayında İtaliyanın Rieti şəhərində keçirilməsi planlaşdırılsa da, yarış pandemiya səbəbi ilə 2021-ci ilin avqust ayının sonlarına təxirə salınmışdı. Lakin İtaliyada hökm sürən ağır epidemioloji vəziyyət Avropa Atletika Federasiyasını çıxılmaz vəziyyətdə qoyub. Beləliklə, beynəlxalq qurum qitə çempionatının ləğv edilməsi barədə qərar qəbul edib. Qeyd edək ki, çempionatda Azərbaycan yığma komandası da mübarizə aparacaqdı.

## Velosipedçimiz WCC komandası ilə müqavilə imzalayıb

Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) və Beynəlxalq Velosipedçilər İttifaqı (UCİ) arasında əldə olunan razılığa əsasən, İsveçrənin Eqle şəhərində yerləşən Dünya Velosiped Mərkəzinə yollanan şose velosipedi üzrə U-23 yığma komandamızın üzvü, idman ustası Ayan Xankişiyeva ilin sonunadək mərkəzin velosiped komandasının heyətində çıxış edəcək.

AzVİF-dən verilən məlumata görə, müvafiq yoxlamalardan uğurla keçən idmançımızla artıq peşəkar müqavilə də imzalanıb.

Martın 8-dən İsveçrədə olan velosipedçimiz burada hazırlıq prosesləri ilə yanaşı, Dünya Velosiped Mərkəzinin komandasının heyətində beynəlxalq yarışlara da qatılacaq.

A.Xankişiyevanın dünya və Avropa çempionatlarından başqa, bu ilin sentyabrında Türkiyənin Konya şəhərində keçiriləcək İslam Həmrəyliyi Oyunlarında da iştirakı nəzərdə tutulur.

UCİ hər il planetin müxtəlif ölkələrindən məhdud sayda gənc və perspektivli idmançıları xüsusi seçim əsasında Dünya Velosiped Mərkəzinə cəlb edir.




## *Qrossmeysterimiz şahmat tarixinə düşdü*

Beynəlxalq Şahmat Federasiyası (FİDE) indiyədək 2800 reytinq xalını keçən qrossmeysterlərin adlarını açıqlayıb. FİDE-nin məlumatına görə, 13 nəfərlik siyahıda Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov (2820) da yer alıb. Siyahıya Maqnus Karlsen başçılıq edir. Norveçli dünya çempionu 2014-cü ildə reytinq xalını 2882-yə çatdırıb. O həmçinin 18 yaşında 2 800 reytinq həddinə çatan ən gənc oyunçu kimi tarixə düşüb.

Bu şahmatçılardan yalnız 5-nin - Maqnus Karlsen, Fabiano Karuana, Uesli So (hər ikisi ABŞ), Maksim Vaşye-Laqrav (Fransa) və Dinq Lirenin (Çin) yaşı hazırda 30 və daha azdır.

Digər tərəfdən, 13 nəfərin 5-i - Maqnus Karlsen, Harri Kasparov, Vişvanatan Anand (Hindistan), Vladimir Kramnik (Rusiya) və Veselin Topalov (Bolqarıstan) dünya çempionluğunu qazanıb.

Bununla bağlı sosial şəbəkə hesabında paylaşım edən Şəhriyar Məmmədyarov “Tarixin bir hissəsi olmaq özəldir!” sözlərini yazıb.

## UEFA-dan azarkeşlərə şad xəbər

UEFA koronavirus pandemiyası dövründə öz bayrağı altında keçirilən yarışlarda azarkeşlərin stadionlara buraxılması ilə bağlı məhdudiyyəti ləğv edib. Bu barədə qitə futbol qurumunun İcraiyyə Komitəsinin iclasında qərar qəbul olunub. Tamaşaçıların futzal matçlarına gəlməsinə qoyulan qadağa da aradan qaldırılıb. Qərar bu ilin iyununda qüvvəyə minəcək.

Yeni qaydalara əsasən, görüşlərdə azarkeş sayı barədə qərar yerli hökumət tərəfindən qəbul olunacaq.

Qeyd edək ki, UEFA ötən ilin oktyabrında stadionlarda maksimum tamaşaçı sayının arenanın ümumi tutumunun 30 faizi həcmində olmasına qərar vermişdi. Amma əksər ölkələrdə ümumiyyətlə arenalara azarkeş buraxılmırdı və matçlar boş tribunalar qarşısında keçirilirdi.

## “Qarabağ” heç-heçə sayəsində liderliyə yüksəldi

***Futbol üzrə Azərbaycan Premyer Liqasında XXI turun oyunları keçirilib. Turun ilk oyununda “Zirə” komandası “ASCO Arena”da “Səbail”lə qarşılaşıb. Görüş qolsuz bərabərliklə başa çatıb -0:0.***

Turun ikinci oyun günündə daha üç qarşılaşma təşkil olunub. Çempionatın liderlərindən “Neftçi” klubu öz meydanında “Sumqayıt”ı qəbul edib. “Bakcell Arena”dakı qarşılaşma “gənclik şəhəri” təmsilçisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. “Sumqayıt”ın heyətində Rəhim Sadıxov 4-cü dəqiqədə hesabı açıb. Yarımmüdafiəçi 42-ci dəqiqədə penaltini də dəqiq yerinə yetirib.

Matç “Neftçi”nin yeni transferi Keysuke Honda üçün əlamətdar olub. İkinci hissənin əvvəlində meydana daxil olan 35 yaşlı yaponiyalı yarımmüdafiəçi ilk rəsmi matçına çıxıb.

“Neftçi”nin futbolçusu Emin Mahmudov komandada 100-cü matçına çıxıb. 29 yaşlı yarımmüdafiəçi Premyer Liqanın XXI turunda “Sumqayıt”la oyunun start heyətində yer alıb. Paytaxt təmsilçisinin prezidenti Kamran Quliyev bu səbəbdən qarşılaşmanın əvvəlində kapitana xatirə hədiyyəsi təqdim edib.

Turun digər oyununda “Sabah” komandası Masazırdakı “Bank Respublika Arena”da “Qəbələ” ilə qarşılaşıb. Görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Yeganə qolu ilk hissənin əsas vaxtına əlavə olunmuş 1-ci dəqiqədə Ramil Şeydayev vurub. 25 yaşlı forvardın qolu eyni zamanda komandasının 7 oyunluq qələbəsizlik seriyasına son qoyub.

Turun sonuncu oyununda son çempion “Qarabağ” klubu “Keşlə”nin qonağı olub. “ASK Arena”dakı qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb.

“Keşlə”nin heyətində yeganə qolu 7-ci dəqiqədə Rəhman Hacıyev vurub. Oyunun 90-cı dəqiqələrində isə Patrik Andrade penaltidən hesabı bərabərləşdirib.

Beləliklə, heç-heçə sayəsində çempionatda 43-cü xalını qazanan “Qarabağ” klubu liderlik mübarizəsində “Neftçi”ni keçərək birinci pilləyə yüksəlib. İkinci pillədə qərarlaşan “Neftçi”nin aktivində 42 xal var. Turnir cədvəlinin üçüncü pilləsini 31 xalla “Zirə” komandası tamamlayır. “Neftçi” üzərində inamlı qələbə qazanaraq 29-cu xalını qazanan “Sumqayıt” isə 4-cü yerdədir. “Qəbələ” komandası 23 xalla 5-ci, “Səbail” isə 19 xalla 6-cı pillədə yer alıb.

“Qəbələ”ni minimal hesabla məğlub edərək xallarının sayını 19-a çatdıran “Sabah” klubu sonuncu pillədən xilas olaraq, 7-ci sıraya yüksəlib. Turnir cədvəlinin sonuncu pilləsində isə “Keşlə” klubu qərarlaşıb.

# Qalibə deyil, qurbana çevirən - dopinq

Mötəbər yarışlarda qələbə qazanmaq hər bir idmançının arzusudur. Xəyal edilən qızıl medala sahib olmaq üçün idmançılar gecələrini gündüzlərinə qatıb aylarla məşq edirlər. Lakin bəzi idmançılar əlavə gücləndiricilərdən istifadə etməklə zəfərə gedən yolu qısaltmağa çalışırlar. Hər zaman ən aktual mövzularla bağlı yazılar hazırlayan “Olimpiya dünyası” qəzeti bu dəfəki sayında oxucularına dopinqin tarixi, qurbanları və əsrlərdir aparılan mübarizə barədə məlumat verəcək. Dopinqin ziyanları barədə demək olar ki, hər addımda məlumat verilməsinə baxmayaraq, məsələ illərdir ki, ən aktual mövzulardan biridir. Güclü təsiredici preparatların qəbulu atletin ürəyinin qəfil dayanmasına səbəb ola bilir. İdmançıların qadağan olunmuş maddələrin həddindən artıq dozasından istifadə halları 1800-cü illərin sonlarında qeydə alınıb. Lakin dünya dopinqin ölümcül nəticələrindən yalnız ötən əsrin 60-cı illərində xəbər tutub.



## Qədimdə dopinq

İdmançıların yarışlarda güc və dözümlük artırmaq üçün müraciət etdikləri gücləndiricilərdən istifadəsi eramızdan əvvəl 776-cı ildə Yunanıstanda təşkil olunan ilk Olimpiya Oyunlarından başlayır. Müasir dövrə gəlib çatan məlumatlara görə, antik Olimpiada iştirakçıları yarışlardan əvvəl bir qədəh şərab və yaxud bitkilərdən hazırlanmış şəfalı içki içirdilər. Qədim olimpiyaçılar ət məhsullarından da həddindən artıq çox istifadə edirdilər. Onlar heyvanların daxili orqanlarından da güc mənbəyi qismində yararlanırdılar. Maraqlıdır ki, yunan atletləri uzun məsafəyə qaçışda yorğunluq hiss etməmək üçün künçüt toxumlarının faydalı olduğunu düşünürdülər. Boksçular və güləşçilər isə birincilik uğrunda ağılasığmaz üsula əl atırdılar. Belə ki, onlar yarışa bir neçə dəqiqə qalmış muxomor (zəhərli göbələk) yeyirdilər. İdmançıların fikrincə, muxomor yarış zamanı onların reaksiyasının daha da yüksəlməsinə və rəqibin endirdiyi zərbəyə dərhal cavab verməyə kömək olur.

Qədim misirlilər də qələbə qazanmaq üçün demək olar ki, bütün üsullara əl atırdılar. Misirlilərin qeyri-adi “güc mənbəyi” bir çoxlarını təəccüb içərisində buraxır. Məsələ burasındadır ki, Misir atletləri yarışlarda yüksək nəticə əldə etməyin açarını əzilərək yağda qızardılmış və çəhrayı ləçəklərlə qarışdırılmış abissin uzunqulağının arxa pəncəsində görürdülər.

## Qələbənin yeni üsulu

Bəzi alimlərin təxminlərinə görə ingilislər “dopinq” sözünü Afrika qəbiləsi olan zuluslardan götürüblər. Fərziyələrə görə, Afrika qitəsinin əhalisi yerli spirtli içkini və ya dini ayinlərdə istifadə olunan psixotrop mayeni məhz belə adlandırırdılar. Elə buradan da, ingilis dilində “to dope” ifadəsi yaranıb. Bu ifadə hərfi mənada “atın yarışlarda daha yaxşı qaçması üçün onu narkotik maddələr ilə yedizdirmək” anlamına gəlir.

Digər alimlərin fikrincə, dopinq sözü dilimizdə qaraçıların sayəsində yaranıb. Belə ki, fərziyələrə görə onlar qarət etmək istədikləri insanlara dopinq deyilən durman otlarının toxumları ilə hazırlanmış tütün təklif edirdilər.

Müasir Olimpiya Oyunlarının başlaması isə atletlər və onların məşqçiləri üçün daha böyük uğurlar qazanmaqda yeni üsulların axtarışına səbəb oldu. Məsələn, fransız velosipedçiləri çaxır və koki yarpaqlarının ekstraktının qarışığını içməyi sevirdilər. Onların belçikalı rəqibləri isə səfərlər zamanı efir yağında isladılmış qənd parçasından istifadə edirdilər. Britaniyalı atletlər də rəqiblərindən geri qalmırdılar. Belə ki, ölkə idmançıları kokain və heroinin qarışımından hazırlanan “spidboll” preparatından yararlanırdılar. Kokainə həmçinin boksçular da xüsusi rəğbət bəsləyirdilər. Hətta onlardan bəziləri yarışlardan əvvəl bədənlərinə kokain tərkibli yağlar çəkirdilər.

## “Çempionun səhər yeməyi”

1936-cı ildə Berlində (Almaniya) keçirilən Olimpiya Oyunları alman idmançılarının 89, ABŞ atletlərinin isə 56 medal qazanması ilə yadda qaldı. Müasir dövrdə alman idmançılarının qazandığı bu möhtəşəm nəticənin səbəbi ölkə alimlərinin bir il əvvəl icad etdikləri sintetik testesteron - yəni kişi hormonu olduğu qeyd olunur. Belə ki, daha güclü və aqressiv olmaları üçün nasist həkimləri bu hormonu əsgərlərə təyin edirdilər. İkinci dünya müharibəsindən sonra isə dinabol (yüksək xüsusiyyətli sintetik testesteron) erası başladı. Amerikalı Con Tsiqlerin dinabolu məhz ABŞ-ın ağırlıqqaldırma millisi üçün hazırladığı bildirilir.





Maddənin istifadəsindən sonra əzələlər sürətlə böyüməyə başlayır. Preparatın üstünlüyü isə ondan ibarət idi ki, istifadədən sonra onun gözəçarpan əks təsirləri hiss olunmurdu. Maraqlıdır ki, məşqçilər dinabolu böyük qablarda süfrəyə təqdim edirdilər və idmançılar onu ovuc-ovuc çörək ilə yeyirdilər. Bu isə “çempionun səhər yeməyi” adlanırdı.

## Dünyanı ayağa qaldıran dopinq

Bütün dünyanı cənginə alan dopinqlə aktiv mübarizə aparan ilk qurum Beynəlxaq Yüngül Atletika Federasiyası oldu. 1928-ci ildə federasiya idmançılarına gücləndirici preparatlardan istifadəni qadağan etdi. Lakin həmin vaxt dopinq nəzarət sistemi mövcud olmadığından bu addım ciddi dəyişikliyə yol açmadı. Amma bir neçə məşhur idmançıların ölümündən sonra vəziyyət kəskin şəkildə dəyişdi. Beləliklə, 1960-cı il avqustun 26-da danimarkalı velosipedçi Knut Yenssen Romada keçirilən Olimpiya Oyunlarında 100 kilometrlik yarış zamanı yerə yıxılaraq, dünyasını dəyişdi. Həkimlərin araşdırması nəticəsində isə idmançının bədənində 20-ci illərin əvvəllərində icad edilmiş və İkinci Dünya müharibəsi zamanı aktiv istifadə olunan amfetamin aşkarlanmışdı. 1967-ci ildə “Le Tour de France” yarışı zamanı 1956-cı il Olimpiya Oyunlarının bürünc mükafatçısı velosipedçi Tommi Simpsonun qalmaqallı ölümü dopinq sistemində dəyişikliyə səbəb oldu. Belə ki, bu hadisədən sonra Beynəlxalq Olimpiya Komitəsi (BOK) idmançıların qanında zərərli maddənin mövcudluğunu yoxlamaq üçün sidik analizinin mütləq olduğunu bəyan etdi. Bununla da, bütün dünyada dopinqə qarşı əsl mübarizə başladı.



## Qurbana çevrilən qaliblər

İdman aləmində dopinqin ilk qurbanı ingiltərəli velosipedçi Artur Lintondur. O, 1896-cı ildə Parisdə keçirilən 600 kilometrlik Bordo yarışındakı qələbəsindən 6 həftə sonra vəfat edib. İdmançının qarın yatalağı xəstəliyindən dünyasını dəyişdiyi bildirilsə də, velosipedçi yarış zamanı strixnin və heroindən hazırlanmış içkidən istifadə etdiyini gizlətmirdi. Maraqlıdır ki, həmin vaxt məhz bu tərkibli içki qələbə qazanmaq üçün ən yaxşı vasitə hesab olunurdu. Bu vasitəyə demək olar ki, ilk Olimpiadanın bütün iştirakçıları müraciət edirdilər. Tropik fındıq ağaclarının toxumlarından hazırlanmış strixnin yarış zamanı idmançıları ən yaxşı canlandıran maye hesab olunurdu.



Heroin və kokain isə yüksək fiziki güc nəticəsində yaranan aclıq və yorğunluğu aradan qaldırmaq üçün istifadə edilirdi. 1904-cü ildə ABŞ-da təşkil olunan Olimpiya Oyunları zamanı yarış marafonu lideri Tomas Hiks trassda yerə yıxılaraq, hər kəsi qorxuya salmışdı. Yalnız idmançının məşqçisi vəziyyəti nəzarətə alıb, hər kəsin gözü önündə idmançının bədəninə strixnin maddəsi yeritdi. Bundan sonra Tomas heç nə olmamış kimi ayağa qalxaraq, yarışa davam etdi. Lakin bir neçə dəqiqə sonra idmançı yenidən huşunu itirdi və prosedur təkrarlandı.

Heç kəsə sirr deyil ki, yarışlarda yüksək nəticə əldə etmək üçün idmançılar hormonal dərmanlara da müraciət edirdilər. Tarixdə hormonal dopinqin ən məşhur qurbanlarından biri isə 1986-cı ildə nüvəitələmə üzrə Avropa çempionu olan Haydi Kriqerdir. 16 yaşından həkimlər və məşqçilər tərəfindən yüksək dozalı preparatlar vurulan alman atleti 1990-cı ildə karyerasını bitirib. Uzun müddət depressiyada olan idmançı zamanla hansı cinsə mənsub olduğundan şübhə edirdi. Lakin bir müddət sonra Haydi özündə kişiyə xas xüsusiyyətlərin daha çox olmasını hiss edərək həyatını dəyişəcək bir qərar verdi. Beləliklə, o, 1997-ci ildə Haydi olmasına son qoymaq üçün əməliyyat masasına uzanır. Həmin vaxta kimi isə Haydinin istifadə etdiyi hormonal dərmanlar öz təsirini göstərməyə başlamışdı. Belə ki, bəzi hallarda insanlar onu əks cinsin nümayəndəsinə bənzədirdilər. Əməliyyatdan sonra Andreas Kriqer adı ilə həyatına davam edən idmançı dopinq qalmaqalında adları hallanan məşhur məşqçiləri təqsirləndirməyə başladı. Bir müddət sonra isə Andreas keçmiş qadın üzgüçü Ut Krauz ilə ailə quraraq, uşaq evindən övlad götürdü. Lakin nə dünya, nə də Almaniya Haydi Kriqeri unutmadı. Belə ki, Almaniya hökuməti dopinqin “qurbanları”na çevrilən idmançıları “Haydi Kriqer” medalı təltif edir.

Bəzən əzələ artması üçün istifadə olunan preparatlar da gözlənilməz nəticə ilə bitir. Belə ki, daha da güclü olmaq arzusu kişi idmançılarda qadınlara məxsus əlamətlər yaradır. Məsələn, ABŞ idman tarixində ən çox nailiyyətə sahib olan, səkkizqat “Mister Olimpiya” yarışının qalibi olan bodibildinqçi Ronni Koleman illər keçdikcə qinekomastiyadan (zamanla idmançıda qadın sinəsinin formalaşması) əziyyət çəkirdi.

Keçmiş amerikalı boksçu Bob Heyzelton farmakologiyadan həddindən artıq çox istifadə etməsi nəticəsində hər iki ayağını itirərək, sözün əsl mənasında canını ölümün pəncəsindən güclə qurtardı. İdmançının ayaqlarında başlayan qanqrena infeksiyanın bütün bədəninə yayılmasına gətirib çıxardı. Bildirək ki, B.Heyzelton steroidlərin insan orqanizminə törətdiyi fəsadların ilk açılışını edib. İdmançı əzələ artırmaq üçün preparatları 1969-cu ildən qəbul edirdi. Bir ayağının amputasiya olunmasından sonra boksçu karyerasını bitirmək qərarına gəlir. Lakin o, şəxsi mühafizəçi işlədiyi dövrdə steroidlərin qəbulunu davam etdirir. Bunun məntiqli nəticəsi olaraq isə Bob ikinci ayağını da itirir.

Daxili orqanların və bədənin fərdi hissələrinin qeyri-mütənasib şəkildə böyüməsi steroidlərin qəbulu ilə mütəmadi məşqlərin nəticəsidir. Alman bodibildinqçi Markus Rül idman tarixində ağır atletlər arasında ən enli kürəyə sahib idmançı hesab olunur. Buna səbəb isə idmançının qəbul etdiyi preparatlar nəticəsində iç orqanlarının nəzarətdən çıxaraq böyüməsidir. Böyümə hormonları və anabolik preparatlar orqanizmin hüceyrələrinin təbii çoxalmasını stimullaşdırır. Bunun da əsasında xərçəng şişlərinin hüceyrələrinin çoxalmasına oxşar proseslər dayanır. Təsadüfi deyil ki, Amerika futbolu ilə məşğul olan Layl Alzado məhz xərçəng xəstəliyi səbəbi ilə vəfat edib. İdmançının sözlərinə görə, o, 26 il boyunca təhlükəli preparatlar qəbul edib. Bunun nəticəsi olaraq, L.Alzado beyin xərçəngindən dünyasını dəyişib.

Düzdür, əsasən dopinqin psixoloji təsiri son olaraq xatırlansa da, farmakologiyanın təsiri altında idmançının



beynində kimyəvi reaksiyalar da kədərli nəticələrə gətirib çıxarır. Dopinqin psixoloji qurbanlarından danışarkən isə WWF və WWE-nın keçmiş ulduzu kanadalı restler Kris Benucu xüsusi qeyd etmək olar. Belə ki, 2007-ci ildə polis Krisin evində həyat yoldaşının, oğlunun və idmançının cəsədlərini aşkar etmişdi. Rəsmi məlumata görə, restler həyat yoldaşını və oğlunu öldürdükdən sonra özünə qəsd edib. Məlumata görə, o, cinayəti mütəmadi şəkildə qəbul etdiyi testesteronun növbəti dozasından sonra aqressiya halında törədib.

## Dopinqlə müasir mübarizə

Hazırda bütün dünya dopinqlə mübarizə aparır. Bunun üçün 1999-cu il noyabrın 10-da İsveçrənin Lozanna şəhərində Beynəlxalq Olimpiya Komitəsi və dünya ölkələrinin hökumətləri tərəfindən ictimai əsaslarla - Ümumdünya Antidopinq Agentliyi (WADA) təsis edildi. Təşkilat “Lozanna bəyannaməsi” əsasında idmanda dopinqə qarşı mübarizənin təbliği, əlaqələndirilməsi və monitorinqi üçün yaradılıb.



2001-ci ildən WADA-nın mənzil-qərargahı Kanadanın Monreal şəhərində yerləşir. İdarəetmə orqanı tərkibinə 38 üzvü daxil edən təsisçilər şurasından ibarətdir.

Azərbaycanda da dopinqə qarşı mübarizə aparılır. Bunun üçün 2016-cı ildə ölkəmizdə antidopinq siyasətinin həyata keçirilməsinə cavabdeh olan vahid qurum - Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) təsis edilib. Bu gün AMADA ən qabaqcıl təcrübələrdən faydalanmaqla Azərbaycan idmanının təmiz idman prinsiplərinə sadiqliyini gücləndirməyi bacarmış və antidopinq ictimaiyyətin qlobal inkişafına fəal töhfə verməklə beynəlxalq tanınma əldə etmiş etibarlı mötəbər bir təşkilatdır.

*Hazırladı:*
***Türkay Niftəliyeva***

# DÇ-2022: Avropanın 55 komandası fərqli nəticələrlə diqqət çəkir

Yola saldığımız həftə gələn il Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatının seçmə oyunları ilə yadda qaldı. Bu mərhələdə 55 komanda ev və səfər oyunlarında fərqli nəticələrlə diqqət mərkəzinə düşdü. Müxtəlif komandaların heyətində çıxış edən 174 futbolçu rəqib qapılarından top keçirməyə müvəffəq oldu. Çıxış etdiyi yığmanın tərkibində ən çox qol vuran futbolçular arasında serbiyalı Aleksandr Mitroviç (5) və türkiyəli Burak Yılmaz (4) fərqləndi. 5 futbolçu - 4-ü müdafiəçi, 1-i isə yarımmüdafiəçi olmaqla rəqib qapısını deyil, öz qapısını hədəf seçdi. 263 futbolçuya hakim tərəfindən sarı kartla xəbərdarlıq edildi. Qapılara təyin olunan penaltilərin 25-də futbolçular onlara bəslənilən ümidləri doğrultdular. "Olimpiya dünyası" qəzeti bu sayında çoxsaylı oxucuların marağını nəzərə alaraq DÇ-2022-nin seçmə oyunlarının nəticələrini bir araya toplayıb.

## *DÇ-2022, seçmə mərhələ*

### A qrupu

Yığma komandamız seçmə mərhələdə hələ ki, iki oyun keçirib. Bu görüşlərin birində Portuqaliya millisi Turində müdafiəçimiz Maksim Medvedyevin öz qapısına vurduğu qolla üç xal əldə edib. Altı gün sonra Bakıda keçirilən görüşdə millimiz Serbiya yığmasını qəbul etdi. Həmin görüşdə də rəqib komandanın müqavimətini qırmaq mümkün olmadı. Matç Emin Mahmudovun penalti zərbəsindən vurduğu qola yadda qaldı. A qrupunda Portuqaliya və Serbiya millisi 7 xalla ilk iki pilləni bölüşdürür. Yığmamız isə İrlandiya yığması ilə birlikdə xalsız sonuncu pillədə yer alıb.

**24 mart**

*Portuqaliya - Azərbaycan - 1:0*
***Qol:*** *Maksim Medvedev, 37-avtoqol*
*Serbiya - İrlandiya - 3:2*

**27 mart**

*Serbiya - Portuqaliya - 2:2*
*İrlandiya - Lüksemburq - 0:1*

**30 mart**

*Azərbaycan - Serbiya - 1:2*
***Qollar:*** *Emin Mahmudov, 59-pen - Aleksandar Mitroviç, 16, 81*
*Lüksemburq - Portuqaliya - 1:3*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Portuqaliya | 3 | 2 | 1 | 0 | 6-3 | 7 |
| 2. Serbiya | 3 | 2 | 1 | 0 | 7-5 | 7 |
| 3. Lüksemburq | 2 | 1 | 0 | 1 | 2-3 | 3 |
| 4. İrlandiya | 2 | 0 | 0 | 2 | 2-4 | 0 |
| **5. Azərbaycan** | **2** | **0** | **0** | **2** | **1-3** | **0** |

### B qrupu

B qrupunun lideri İspaniya yığmasıdır. Keçirdiyi üç görüşdən 7 xal toplayan "qırmızı Furya" iki görüşdə qələbə qazanıb. İspaniya millisi evdə Yunanıstan yığması ilə matçda iki xal itirib. Qrupda xal qazanmayan yeganə komanda Kosovo seçməsidir. Bu mərhələdə uzun illərdən sonra Zlatan İbrahimoviçin İsveç millisinə qayıdışı, gürcüstanlı gənc futbolçu Kvitsa Kvaratsxeliyanın uğurlu çıxışı və Kosovo millisinin İspaniya komandasına uzaqdan vurduğu qol yadda qalan hadisələrdən oldu.

**25 mart**

*İspaniya - Yunanıstan - 1:1*
*İsveç - Gürcüstan - 1:0*

**28 mart**

*Gürcüstan - İspaniya- 1:2*
*Kosovo - İsveç - 0:3*

**31 mart**

*Yunanıstan - Gürcüstan - 1:1*
*İspaniya - Kosovo - 3:1*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. İspaniya | 3 | 2 | 1 | 0 | 6-3 | 7 |
| 2. İsveç | 2 | 2 | 0 | 0 | 4-0 | 6 |
| 3. Yunanıstan | 2 | 0 | 2 | 0 | 2-2 | 2 |
| 4. Gürcüstan | 3 | 0 | 1 | 2 | 2-4 | 1 |
| 5. Kosovo | 2 | 0 | 0 | 2 | 1-6 | 0 |

### C qrupu

C qrupunda İtaliya millisi maksimum nəticə göstərib. Apeninlilər üç görüşdə hər komandaya iki qol vuraraq, öz qapısını toxunulmaz saxlayıb. Qrupun ən zəifi isə Litva seçməsidir. Baltik təmsilçiləri hələ də rəqib qapısına yol tapa bilməyiblər.

**25 mart**

*Bolqarıstan - İsveçrə - 1:3*
*İtaliya - Şimali İrlandiya - 2:0*

**28 mart**

*Bolqarıstan - İtaliya - 0:2*
*İsveçrə - Litva - 1:0*

**31 mart**

*Litva - İtaliya - 0:2*
*Şimali İrlandiya - Bolqarıstan - 0:0*




| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. İtaliya | 3 | 3 | 0 | 0 | 6-0 | 9 |
| 2. İsveçrə | 2 | 2 | 0 | 0 | 4-1 | 6 |
| 3. Ş.İrlandiya | 2 | 0 | 1 | 1 | 0-2 | 1 |
| 4. Bolqarıstan | 3 | 0 | 1 | 2 | 1-5 | 1 |
| 5. Litva | 2 | 0 | 0 | 2 | 0-3 | 0 |

### D qrupu

D qrupunda Fransa millisi zirvədə yer alıb. Üç görüşdə 7 xal toplayan "üçrənglilər" doğma stadionlarında Ukrayna ilə xal bölgüsü apardılar. Maraqlıdır ki, minimal heçə-heçə ilə başa çatan görüşdə bərabərlik qolunu fransalı futbolçu Prisnel Kimpembe öz qapısına vurub. İkinci pillədə olan Ukrayna millisi üç görüşün hər birində heç-heçə edərək, cəmi üç xal qazanıb.

**24 mart**

*Finlandiya - Bosniya və Hers - 2:2*
*Fransa - Ukrayna - 1:1*

**28 mart**

*Qazaxıstan - Fransa - 0:2*
*Ukrayna - Finlandiya - 1:1*

**31 mart**

*Bosniya və Hers - Fransa - 0:1*
*Ukrayna - Qazaxıstan - 1:1*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Fransa | 3 | 2 | 1 | 0 | 4-1 | 7 |
| 2. Ukrayna | 3 | 0 | 3 | 0 | 3-3 | 3 |
| 3. Finlandiya | 2 | 0 | 2 | 0 | 3-3 | 2 |
| 4. Bosniya və Hers | 2 | 0 | 1 | 1 | 1-2 | 1 |
| 5. Qazaxıstan | 2 | 0 | 1 | 1 | 1-3 | 1 |

### E qrupu

E qrupunda da eyni vəziyyət hökm sürür. Üç görüşdən belçikalılar 7 xal əldə edib. Çexiya millisi ilə görüşdə "qırmızılar" iki xal itirib. Ümumilikdə isə seçmə mərhələdə ən çox qol vurulan qrup məhz E qrupu sayılır. Mərhələnin ən yaddaqalan matçı isə Belçika-Belarus görüşü olub. Qrupun lideri rəqib qapısından 8 cavabsız top keçirib.

**24 mart**

*Belçika - Uels - 3:1*
*Estoniya - Çexiya - 2:6*

**27 mart**

*Belarus - Estoniya 4:2*
*Çexiya - Belçika - 1:1*

**30 mart**

*Belçika - Belarus - 8:0*
*Uels - Çexiya - 1:0*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Belçika | 3 | 2 | 1 | 0 | 12-2 | 7 |
| 2. Çexiya | 3 | 1 | 1 | 1 | 7-4 | 4 |
| 3. Uels | 2 | 1 | 0 | 1 | 2-3 | 3 |
| 4. Belarus | 2 | 1 | 0 | 1 | 4-10 | 3 |
| 5. Estoniya | 2 | 0 | 0 | 2 | 4-10 | 0 |

### F qrupu

Danimarka millisi hələ ki, maksimum nəticə göstərən seçmələr sırasında yer alıb. Qrupda çıxış edən hər bir komandanın aktivində ən azı bir xal var. Bu qrupda da qol məhsuldarlığı yüksəkdir. Ən çox top Moldova millisinin qapısından keçib.

**25 mart**

*İsrail - Danimarka - 0:2*
*Moldova - Farer adaları - 1:1*
*Şotlandiya - Avstriya - 2:2*

**28 mart**

*Danimarka - Moldova - 8:0*
*Avstriya - Farer adaları - 3:1*
*İsrail - Şotlandiya - 1:1*

**31 mart**

*Şotlandiya - Farer adaları - 4:0*
*Avstriya - Danimarka - 0:4*
*Moldova - İsrail - 1:4*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Danimarka | 3 | 3 | 0 | 0 | 14-0 | 9 |
| 2. Şotlandiya | 3 | 1 | 2 | 0 | 7-3 | 5 |
| 3. İsrail | 3 | 1 | 1 | 1 | 5-4 | 4 |
| 4. Avstriya | 3 | 1 | 1 | 1 | 5-7 | 4 |
| 5. Farer adaları | 3 | 0 | 1 | 2 | 2-8 | 1 |
| 6. Moldova | 3 | 0 | 1 | 2 | 2-13 | 1 |

### G qrupu

"Ayulduzlular" G qrupunda uğurlu çıxışla diqqət çəkirlər. Qrupun aşkar favoriti Hollandiya millisi ilə görüşdə türkiyəlilər qələbə qazanaraq bir ilkə imza atıb. Ardınca Noveç yığmasına qalib gələn Şenol Günəşin yetirmələri Latviya millisi ilə görüşdə xal itkisinə məruz qalıb. Tükiyə ilə görüşdə dörd qol buraxan narıncılar növbəti iki matçda bu məğlubiyyəti 9 qolla çıxmağa çalışıb. Ümumilikdə bu qrpuda da qol məhsuldarlığı digərlərindən fərqlənmir. Ən çox qol buraxan komanda isə Cəbəllütariq yığmasıdır.

**24 mart**

*Türkiyə - Niderland - 4:2*
*Cəbəllütariq - Norveç - 0:3*
*Latviya - Monteneqro - 1:2*

**27 mart**

*Monteneqro - Cəbəllütariq - 4:1*
*Norveç - Türkiyə 0:3*
*Niderland - Latviya - 2:0*

**30 mart**

*Cəbəllütariq - Niderland - 0:7*
*Monteneqro - Norveç - 0:1*
*Türkiyə - Latviya - 3:3*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Türkiyə | 3 | 2 | 1 | 0 | 10-5 | 7 |
| 2. Niderland | 3 | 2 | 0 | 1 | 11-4 | 6 |
| 3. Monteneqro | 3 | 2 | 0 | 1 | 6-3 | 6 |
| 4. Norveç | 3 | 2 | 0 | 1 | 4-3 | 6 |
| 5. Latviya | 3 | 0 | 1 | 2 | 4-7 | 1 |
| 6. Cəbəllütariq | 3 | 0 | 0 | 3 | 1-14 | 0 |

### H qrupu

Xorvatiya və Rusiya milli komandası qrupda liderlik uğrunda mübarizəni davam etdirirlər. Hər iki komanda bir görüşdə məğlub olsalar da, əvvəlki qələbələr onların köməyinə çatıb. Qrupun autsayderi Malta millisi bir xal qazanmasına baxmayaraq, rəqib qapılarından 3 top keçirə biliblər.

**24 mart**

*Kipr - Slovakiya - 0:0*
*Malta - Rusiya - 1:3*
*Sloveniya - Xorvatiya - 1:0*

**27 mart**

*Rusiya - Sloveniya - 2:1*
*Xorvatiya - Kipr - 1:0*
*Slovakiya - Malta - 2:2*

**30 mart**

*Kipr - Sloveniya - 1:0*
*Slovakiya - Rusiya - 2:1*
*Xorvatiya - Malta - 3:0*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Xorvatiya | 3 | 2 | 0 | 1 | 4-1 | 6 |
| 2. Rusiya | 3 | 2 | 0 | 1 | 6-4 | 6 |
| 3. Slovakiya | 3 | 1 | 2 | 0 | 4-3 | 5 |
| 4. Kipr | 3 | 1 | 1 | 1 | 1-0 | 4 |
| 5. Sloveniya | 3 | 1 | 0 | 2 | 2-3 | 3 |
| 6. Malta | 3 | 0 | 1 | 2 | 3-8 | 1 |

### İ qrupu

İ qrupunda yer alan 6 komandadan 4-nün hələ də DÇ-2022-yə vəsiqə əldə etmək şansı qalır. Daha çox İngiltərə millisi bu vəsiqəyə namizəddir. Britaniyalılar seçmə mərhələdə keçirilən ilk üç görüşdə qələbəni əldən verməyib. Macarıstan və Albaniya rəqibin büdrəməsini gözləyir. Son pillələrdə yer alan Andorra və San Marino "0"ları sıralayır.

**25 mart**

*İngiltərə - San-Marino - 5:0*
*Macarıstan - Polşa - 3:3*
*Andorra - Albaniya - 0:1*

**28 mart**

*Albaniya - İngiltərə - 0:2*
*Polşa - Andorra - 3:0*
*San Marino - Macarıstan - 0:3*

**31 mart**

*San Marino - Albaniya - 0:2*
*Andorra - Macarıstan - 1:4*
*İngiltərə - Polşa - 2:1*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. İngiltərə | 3 | 3 | 0 | 0 | 9-1 | 9 |
| 2. Macarıstan | 3 | 2 | 1 | 0 | 10-4 | 7 |
| 3. Albaniya | 3 | 2 | 0 | 1 | 3-2 | 6 |
| 4. Polşa | 3 | 1 | 1 | 1 | 7-5 | 4 |
| 5. Andorra | 3 | 0 | 0 | 3 | 1-8 | 0 |
| 6. San Marino | 3 | 0 | 0 | 3 | 0-10 | 0 |

### J qrupu

Almaniya millisi heç də öz adına layiq olmayan pillədə qərarlaşıb. Şimali Makedoniya yığmasına məğlub olan bundestim öz işini son turlara saxlayıb. Qrupda birinci yerdə isə Ermənistan yığmasıdır. Onlar keçirdikləri hər üç görüşdə üç xal əldə ediblər. Qrupun zirzəmisində isə Lixtenşteyn yığması yer alıb.

**25 mart**

*Almaniya - İslandiya - 3:0*
*Rumıniya - Ş.Makedoniya - 3:2*
*Lixtenşteyn - Ermənistan - 0:1*

**28 mart**

*Ermənistan - İslandiya - 2:0*
*Rumıniya - Almaniya - 0:1*
*Ş.Makedoniya - Lixtenşteyn - 5:0*

**31 mart**

*Ermənistan - Rumıniya - 3:2*
*Lixtenşteyn - İslandiya - 1:4*
*Almaniya - Ş.Makedoniya - 1:2*

| | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|
| 1. Ermənistan | 3 | 3 | 0 | 0 | 6-2 | 9 |
| 2. Ş.Makedoniya | 3 | 2 | 0 | 1 | 9-4 | 6 |
| 3. Almaniya | 3 | 2 | 0 | 1 | 5-2 | 6 |
| 4. Rumıniya | 3 | 1 | 0 | 2 | 5-6 | 3 |
| 5. İslandiya | 3 | 1 | 0 | 2 | 4-6 | 3 |
| 6. Lixtenşteyn | 3 | 0 | 0 | 3 | 1-10 | 0 |

FUTBOL

# Avropadan transfer xəbərləri



## İspaniya

Madrid "Real"ında çıxış edən Lukas Vaskes bu mövsümün sonunda komandanı tərk edəcək. Klub rəhbərliyi 29 yaşlı oyunçuya bu yay başa çatacaq müqavilənin müddətini uzatmağı təklif etsə də, Lukas təkliflə razılaşmır. İspan futbolçunun karyerasını ya "Arsenal"da, ya da "Bavariya"da davam etdirəcəyi qeyd olunur.

* * *

"Barselona" yay transfer pəncərəsində Braziliya "Flamenqo"sunun gənc müdafiəçisi Natanı heyətinə qatmağa çalışacaq. 20 yaşlı oyunçu bu aydan San Paulu "Braqantino"sunda icarə əsasında oynayır. Qeyd edək ki, braziliyalı futbolçunun təzminat qiyməti 70 milyon avrodur.

## İngiltərə

"Mançester Siti" cari mövsümün sonunda Serxio Aquero ilə yollarını ayıracaq. Klubun



rəsmi tvitter səhifəsində bildirilir ki, argentinalı hücumçunun yayda başa çatacaq müqaviləsi yenilənməyəcək. Qeyd edək ki, 2011-ci ildən Premyer Liqa təmsilçisində çıxış edən Serxio Aquero 384 oyunda vurduğu 257 qolla komandanın ən sərrast futbolçusudur.

"Mançester Siti" yay transfer pəncərəsində "Borussiya"nın (Dortmund) hücumçusu Erling Haaland və "Aston Villa"nın yarımmüdafiəçisi




Cek Qrilişlə heyəti gücləndirmək istəyir. Buna görə "şəhərlilər" 200 milyon funt sterlinq xərcləməlidir.

* * *

Aleks Telles "Mançester Yunayted"dən ayrılmağa qərar verib. Braziliyalı futbolçu İngiltərə klubundakı münasibətdən narazıdır. 28 yaşlı futbolçu oyun praktikasının azlığı ilə barışmaq fikrində deyil. Bu səbəbdən də Aleks daha çox oynayacağı kluba keçməkdə maraqlıdır. Qeyd edək ki, Telles 2020-ci ilin oktyabrında "Porto"dan 15 milyon avroya transfer olunub.

* * *

"Lester" "Roma"ya məxsus olan türkiyəli futbolçu Cengiz Ündəri transfer etmək istəmir. İcarə əsasında "Lesterdə" çıxış edən yarımmüdafiəçi mövsümün sonunda Romaya qayıdacaq. İtaliya klubu Cengiz üçün "tülkülər"dən 23 milyon avro tələb etsə də, qarşı tərəf bu qiymətlə razılaşmayıb.

Bu arada "Lester" Keleçi İheanaço ilə müqaviləni yeniləyib. Premyer Liqa təmsilçisi 24 yaşlı hücumçu ilə razılaşmanı 2024-cü ilin yayına qədər artırıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. İheanaço bu mövsüm "Lester Siti" ilə 28 oyunda 12 qol vurub. Nigeriyalı futbolçu 2017-ci ildən "Lester Siti"də çıxış edir.

* * *

"Tottenhem"in hücumçusu Son Hın-Min yayda "Bavariya"nın formasını geyinə bilər. Münhen təmsilçisi 28 yaşlı futbolçu ilə London klubu arasında müqavilənin uzadılması ilə bağlı danışıqlarda maraqlıdır. "Tottenhem"in cənubi koreyalı oyunçuya həftədə 200 min funt sterlinqdən çox maaş olmaqla, 5 illik müqavilə təklif edib. Son isə bu təklifə fikir bildirməyib. O, buteklifi qəbul etməyəcəyi təqdirdə, "Bavariya" yaxşılaşdırılmış şərtlərlə oyunçu ilə müqavilə imzalamağa çalışacaq.

* * *

"Leyptsiq"in müdafiəçisi İbraima Konate "Liverpul"da çıxış edə bilər. Mersisayd təmsilçisi 21 yaşlı oyunçu üçün 40 milyon avro ödəməyə hazırdır. "Liverpul"un artıq futbolçuya 5 illik müqavilə təklif etdiyi barədə xəbərlər yayılıb.

* * *

"Tottenhem" "İnter"in futbolçusu Milan Şkrinyarı transfer etməyi planlaşdırır. London təmsilçisinin baş məşqçisi Joze Mourinyo 25 yaşlı müdafiəçini komandasında görmək istəyir. Klubların artıq danışıqlar apardığı və keçid üçün razılıq əldə etməyə yaxın olduqları bildirilib.

* * *

"Aston Villa" klubu futbolçusu Ezri Konsanın müqaviləsini yeniləyib. 23 yaşlı müdafiəçi ilə müddəti 2026-cı ilin yayına qədər olan yeni müqavilə öz təsdiqini tapıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Qeyd edək ki, Konsa 2019-cu ildən "Aston Villa"da çıxış edir. Müdafiəçinin əvvəlki müqaviləsi 2023-cü ilin yayına qədər idi.

## İtaliya

"Milan"da çıxış edən Alessio Romaqnoli "Barselona" və "Yuventus"un maraq dairəsinə düşüb. Hər iki klub 26 yaşlı mərkəz müdafiəçini yaxından izləyir. "Milan" 2022-ci ilin iyununda



başa çatacaq müqavilənin müddətini uzatmaq istəsə də, danışıqlar səmərə vermir. Belə olduğu təqdirdə klub Romaqnolini yayda 20 milyon avroya sata bilər. Bu məbləğ isə rəqib komandaların büdcəsinə uyğundur.

* * *

"Yuventus" klubu sabiq futbolçusu Moyze Kini heyətinə qaytarmaq istəyir. Turin təmsilçisi İngiltərə "Everton"una məxsus olub, icarə əsasında



Fransa PSJ-sində çıxış edən hücumçunun geri qaytarmasında maraqlıdır. 21 yaşlı forvard A seriyası klubunun transfer siyahısında yer alıb. 2016-2019-cu illərdə "Yuventus"da oynayan Kin "Everton"a 40 milyon avroya keçib. "Everton"la müqaviləsi 2024-cü ildə başa çatacaq Moyze mövsümün sonunadək Paris klubunda oynayacaq.

* * *

"Milan" yayda azad agent statusu əldə edəcək Canluici Donnarumma ilə müqaviləni yeniləyə bilmir. Klub italiyalı qapıçıya illik 7 milyon



avro maaş alacağı müqavilə təklif edib. Lakin Donnarumma daha çox pul tələb edir.

"Milan" rəhbərliyi yay transfer pəncərəsində Duşan Vlahoviç ("Fiorentina"), Andrea Belotti ("Torino"), Doniella Malena (PSV), Miron Boadu ("AZ Alkmaar") və Odsonn Eduar ("Seltik") kimi futbolçulardan birini heyətə cəlb etmək istəyir.

* * *

"Atletik"in müdafiəçisi Unai Nunyes karyerasını İtaliya klubunda davam etdirmək imkanı qazanıb. Belə ki, 24 yaşlı futbolçu "Milan" və "Roma" klublarının diqqətini özünə çəkib. Bilbao təmsilçisi ilə 2025-ci ilə qədər müqaviləsi olan Nunyes qarşılıqlı razılaşma əsasında klubu tərk etmək istəyir. Hazırda onun transfer qiyməti 20 milyon avrodur.

* * *

Yay transfer pəncərəsində "Atalanta" iki qapıçısı - Pyerluici Qollini və Marko Sportellonu itirə bilər. Bu halla qarşılaşmaq istəməyən "berqamolular" "Cenoa"da çıxış edən, müqaviləyə əsasən "Yuventus"a məxsus olan Mattia Perinanı transfer etmək istəyir. "Atalanta" "qoca sinyora"ya 28 yaşlı Perina üçün 7,5 milyon avroluq təklif göndərib.



## Fransa

PSJ Kilian Mbappe ilə müqavilənin uzadılması haqqında razılaşa bilmir. "Le Parisien"nəşrinin verdiyi məlumata görə, klub hücumçunu 120-150 milyon avroya satmağa hazırdır. "Parislilər" bundan əvvəl futbolçuya görə 200 milyon avro qiymət qoymuşdu.

* * *

"Lion" futbolçusu Marselo Qedeslə yeni müqavilə imzalayıb. 33 yaşlı müdafiəçi ilə yayda başa çatacaq müqavilənin müddəti 2023-cü ilin yayına qədər uzadılıb.Qeyd edək ki, braziliyalı futbolçu 2016/2017 mövsümündə "Beşiktaş"da oynadıqdan sonra "Lion"a transfer olunub. O, bu mövsüm 28 matçda 2 qol vurub.

# Dünya idmanı



## Hamilton Şumaxerin daha bir rekordunu yenilədi

Hazırkı dünya çempionu, əfsanəvi Mixael Şumaxerin bir neçə rekordunu üstələyən “Mercedes” komandasının pilotu Lüis Hemilton Bəhreyn Qran-Prisinin sonunda almaniyalı sürücünün daha bir rekordunu yeniləyib. Sahirdəki qələbədən sonra L.Hemiltonun lider olduğu dövrələrin sayı artıq 5 min 126-ya çatıb. M.Şumaxer isə ötən illər ərzində 5 min 111 dövrədə lider olub.

Xatırladaq ki, 2021-ci ildə titul qazanacağı təqdirdə, L.Hemilton F-1-in yeganə 8 qat dünya çempionu olacaq.






## Keniyalı atlet yeni dünya rekorduna imza atdı

İstanbulda qaçış üzrə yarımarafon yürüşündə yeni dünya rekordu müəyyənləşdirilib. Uzun məsafələrə qaçış üzrə dünya çempionu Rut Çepnhetiç qadınlar arasında yarımarafon yürüşündəki ən yaxşı nailiyyəti yeniləyib.

Keniyalı idmançı 21 km məsafəni 1 saat 4 dəqiqə və 2 saniyəyə dəf edərək, öncəki dünya rekordunu 29 saniyə tezləşdirib.

Qeyd edək ki, bu məsafədə qadınlar arasında əvvəlki rekordun müəllifi efiopiyalı qaçışçı Ababel Yeşaneh olub.

## Tennisçi 14 il yarışlardan kənarlaşdırıldı



Venesuela tennisçisi Roberto Maytin 14 il müddətinə diskvalifikasiya olunub. 32 yaşlı idmançı antikorrupsiya qaydalarını pozduğu üçün “Tennis Integrity Unit” antikorrupsiya strukturu tərəfindən cəzalandırılıb. O, həmçinin 100 min ABŞ dolları məbləğində cərimələnib.

Maytin 2017 - 2018-ci illərdəki əməllərinə görə ittiham olunub, lakin qərardan apellyasiya şikayəti verməyib. Onun bir neçə dəfə mövcud qaydaları pozduğu iddia edilir.

Tennisçinin məşqçilik etməsi və ya hansısa tennis yarışına qatılması da qadağan olunub. İdmançının cəzası martın 29-dan qüvvəyə minib.

Qeyd edək ki, Roberto Maytin dünya reytinqində 179-cu sırada qərarlaşıb.

## olimpnews.az - sizin saytınız



## Kapitanlıq sarğısı serbiyalı uşağın müalicəsinə kömək edəcək

Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldonun DÇ-2022-nin seçmə mərhələsində Serbiya ilə



oyunda yerə çırpdığı kapitan sargısı xeyriyyə auksionunda satılıb.

Sargı üçün 7,5 milyon Serbiya dolları (təqribən 63,7 min ABŞ dolları) ödənilib.

Satışdan əldə olunan vəsait onurğasında problem olan 6 aylıq serbiyalı körpənin müalicəsinə sərf olunacaq. Uşağın müalicə xərci isə ümumilikdə 2,5 milyon avro təşkil edir.

Xatırladaq ki, Serbiya - Portuqaliya matçında (2:2) Ronaldo təmiz qolu sayılmadığı üçün hakimə etiraz edərək, sargını yerə çırpıb. Referi onu sərt etirazlarına görə sarı vərəqə ilə cəzalandırıb. Portuqaliyalı oyunçu isə matç bitməmiş meydançanı tərk edərək, paltardəyişmə otağına gedib.

## Geyinilmiş corablarını sataraq pul qazanan xanım boksçu



Qadın boksçu Ebaniye Brices maraqlı üsulla pul qazanır. Avstraliyalı idmançı geyinilmiş idman corablarını kişi fanatlarına satır. E.Brices son olaraq kirli idman corabını bir fanatına sataraq 900 dollar qazanıb. O, hər ay sadəcə corablarının satışından 6 min dollar gəlir əldə edir.

“İlk dəfə “Twitter”dən bir kişi geyinilmiş corablarımı almaq istədiyini yazdı. Bundan sonra bu işə başladım. Artıq bir ildi davam edir. Bu işdən həzz alıram və yaxşı pul qazanıram. Həddən artıq çox sifariş var. Corablarımı geyinərkən çəkdiyim fotolardan da pul qazanıram. Hər şəkilə görə 100 dollar alıram” deyə Ebaniye Brices bildirib.

## İspaniya Kubokunun qalibi müəyyənləşdi

Futbol üzrə İspaniya Kubokunun qalibi müəyyənləşib. Sevilya şəhərinin Olimpiya stadionunda təşkil olunan final oyununda “Real Sosyedad” və “Atletik Bilbao” komandaları üz-üzə gəlib. Görüş “Real Sosyedad”ın qələbəsi ilə yekunlaşıb - 1:0. Yeganə qolu 63-cü dəqiqədə 11 metrlik cərimə zərbəsindən Mikel Oyarsabal vurub.

Bununla da, “Real Sosyedad” tarixində üçüncü dəfə İspaniya Kubokunu qazanıb.

Xatırladaq ki, İspaniya Kuboku uğrunda final görüşü koronavirus pandemiyası səbəbindən təxirə salınıb. Görüş 2020-ci il aprelin 18-də keçirilməli idi.

## Olimpiya mükafatçısı yenidən həbs ediləcək

Akademik avarçəkmə üzrə Olimpiya Oyunlarının gümüş mükafatçısı Con Beqqeli və onun kiçik qardaşı 200 milyon Avstraliya dolları məbləğində narkotik qaçaqmalçılığı məqsədi ilə danışıqlarda günahkar biliniblər.

45 yaşlı avstraliyalı keçmiş idmançı İndoneziya gəmisindən suya atılan narkotik paketlərini əldə etmək üçün hava qayığında dənizə çıxıb. Lakin qaçaqmalçılar sahil mühafizəsi tərəfindən aşkar edilərək saxlanılıblar.

Qeyd edək ki, C.Beqqeli 2004-cü ildə Afinada təşkil olunan Olimpiya Oyunlarında gümüş medal qazanıb. Amma bir il sonra idmançının dopinq testi müsbət çıxıb və o, diskvalifikasiya edilib. Bir müddət sonra idmançı narkotik ticarətinə görə 10 il həbs cəzası alsa da, azadlığa çıxdıqdan sonra cinayət fəaliyyətini yenidən davam etdirib. Buna görə də



Con Beqqeli həyatının daha 10 ilini dəmir barmaqlıqlar arxasında keçirəcək.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19